# Suverenliyin və hüquqi dəyərlərin təbliği

**Yeni Azərbaycan Partiyası Astara rayon təşkilatı və Astara Pedaqoji Kollecinin birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş tədbir keçirilib.**





Tədbirin əvvəlində xalqımızın ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda şəhidlik zirvəsinə ucalmış igidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

**Astara Pedaqoji Kollecinin direktoru, filologiya elmləri doktoru, professor Kamran Kazımov** 2025-ci ilin Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edildiyini diqqətə çatdırıb. 1995-ci il noyabr ayının 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycanın ilk milli Konstitusiyasının qəbulundan 30 il, Vətən müharibəsində tarixi qələbəmizdən 5 il keçir. Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etməklə dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsində mühüm qanunvericilik bazası rolunu oynayır. 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Konstitusiyanın hüquqi qüvvəsi işğaldan azad edilmiş bütün ərazilərdə bərqərar olmuşdur.

Yeni Azərbaycan Partiyası Astara rayon təşkilatının sədri Həbib Cəfərov qeyd edib ki, "Konstitusiya və Suverenlik İli" dövlətçilik tariximizin daha da dərindən öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Milli Konstitusiyamızda əksini tapan müddəaların böyük əksəriyyəti insan hüquqlarının qorunmasına həsr edilib. Konstitusiyanın qəbulundan ötən dövr ərzində 2002, 2009 və 2016-cı illərdə bu ali sənədə əlavə və dəyişikliklər edilib. 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan edilməsi də ölkəmizdə bu sahədə atılan növbəti addımların davamıdır.

Sonra kollecin tarix müəllimi Elçin Mahmudovun "Konstitusiya və Suverenlik İli" mövzusunda məruzəsi dinlənilib. Bildirilib ki, aparılan genişmiqyaslı islahatlar xalqımızın hüquqi dövlət quruculuğu yolunda inamla irəliləməsi üçün geniş imkanlar açır. Cari ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi milli suverenliyimizin və hüquqi dəyərlərimizin təbliği baxımından çox mühüm bir addımdır.

Astara Pedaqoji Kolleci yanında İctimai Şuranın üzvlərindən Rafiq Əliyev və Adil Rzayev, kollecin müəllimi Şükran Şabanov çıxışlarında "Konstitusiya və Suverenlik İli"nin ölkəmizin hərtərəfli inkişafında mühüm mərhələ olacağını, Azərbaycanın dünya birliyində mövqeyinin daha da möhkəmlənəcəyini, müstəqilliyimizin dönməz və əbədi olmasında əvəzsiz rol oynayacağını bildiriblər.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

Respublika .- 2025.- 13 mart (№ 55).- S.5.